Xalq qəzeti .- 2022.- 20 oktyabr.

# İlham Əliyev: Biz dünyada bir-birinə ən yaxın olan iki ölkəyik

**Deyirlər, çətin zamanlar güclü insanlar və möhkəm dostluqlar yaradır. Azərbaycanın son 30 ilinə nəzər salsaq görərik ki, bu deyimdəki hər iki məfhum məhz elə bizim taleyimizi əks etdirir.**



Ötən əsrin 90-cı illərinin əvvəlləri təkcə Azərbaycan deyil, ümumilikdə, region üçün çox çətin dövr idi. Həmin dövr eynilə əsrin əvvəllərində türk dünyasına Atatürkü bəxş etdiyi kimi, sonlarında da ulu öndəri həm Azərbaycan xalqına, həm də regiona bəxş etmişdi. Ulu öndər Heydər Əliyevin uzaqgörən, müdrik xarici siyasəti və Vətən sevgisi ölkəni çətin vəziyyətdən xilas etməklə kifayətlənmədi, eləcə də Azərbaycanı regionun liderinə, dünyada söz sahibinə çevirdi. O ki qaldı, möhkəm dostluğa, əslində, Azərbaycan və Türkiyə münasibətləri özündə təkcə dostluq yox, həm də qardaşlıq bağlarını ehtiva edir. Müxtəlif dövrlərdə bu qardaşlıq münasibətlərini kölgələməyə, araya nifaq toxumları səpməyə çalışanlar da az olmayıb. Lakin Azərbaycan–Türkiyə münasibətlərinin indiki mərhələsi onu deməyə əsas verir ki, bu qüvvələr nəinki istəklərinə nail ola bilməyiblər, hətta münasibətlərin bir qədər də möhkəmlənməsinə vəsilə olublar.

2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə “Şərq tərəfdaşlığı” proqramının 5 illiyinə həsr olunan sammit bu fikrin ən gözəl nümunələrindən biridir. Belə ki, o vaxt Türkiyənin sammitdə iştirak etməməsini fürsət bilən sabiq Ermənistan prezidenti Serj Sarkisyan bütün çıxışını qondarma “erməni soyqırımı”na həsr etdi. Prezident İlham Əliyevin cavabı isə həm onu susduracaq, həm də Azərbaycan – Türkiyə münasibətlərinin səviyyəsini bütün dünyaya xatırladacaq xarakterdə oldu. Dövlətimizin başçısı çıxışı zamanı dedi ki, Türkiyənin olmadığı masada bü cür danışmaq asandır. Türkiyə burada yoxdursa, mən varam. Əslində, bu ifadə bir çox məsələni izah etmək üçün kifayətdir. Lakin günümüzə qayıdıb məsələnin bir qədər də dərininə nüfuz etmək istəyirik.

Məlum olduğu kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan Hava Limanının açılışı ilə bağlı Azərbaycana səfər edəcək. Bu, bizim üçün çox təbii olsa da, dünya təcrübəsində o qədər də çox təsadüf edilməyən bir haldır. Çünki, dünyada elə iki ölkə yoxdur ki, Türkiyə və Azərbaycan qədər bir-birinin maraqlarını müdafiə etsin. Təsəvvür edin ki, 30 ilə yaxın müddət ərzində düşmən əsarətində olan torpaqlar müharibə yolu ilə işğaldan azad edilir və qələbədən sonra paytaxtda keçirilən Zəfər paradında ölkə Prezidenti ilə çiyinçiyinə qardaş ölkənin lideri dayanır. Həmin ölkənin əsgərləri də paradda iştirak edirlər. Bu, təkcə birliyin, bərabərliyin və qardaşlığın nümunəsi deyil, həm də bütün dünya üçün mesajdır.

Elə Prezident İlham Əliyev də çıxışlarında tez-tez bu məsələyə toxunur. Qeyd edir ki, Türkiyə Azərbaycana həm siyasi, həm də mənəvi dəstək verir. Biz bu dəstəyi hər zaman hiss etmişik.

Türkiyə hələ 1993-cü ildə erməni terrorçularının Kəlbəcəri işğal etməsindən sonra bu ölkə ilə sərhədlərini bağlamış və Azərbaycanın yanında olduğunu nümayiş etdirmişdi. Hətta bu mövzu hər dəfə gündəmə gələndə Prezident Ərdoğan erməni nümayəndələrə bu məsələdə Azərbaycanın mövqeyinin çox önəmli olduğunu bildirir. Belə ki, Vətən müharibəsindən sonra imzalanan sənədlərə əhəmiyyət verməyən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan zaman-zaman iqtisadi blokadadan çıxmağın yolunu Türkiyə ilə sərhədlərin açılmasında görür. Qoy, onlar başa düşsünlər ki, regionda davamlı sülh təmin edilmədikcə bu proses reallaşmayacaq. Çünki, Ermənistan sülh danışıqlarının inkişafına mane olur, kommunikasiyaların açılması məsələsinə ciddi yanaşmır və prosesi ləngitməyə çalışır.

Azərbaycan və Türkiyə arasındakı münasibətlərin II Qarabağ müharibəsindən sonra daha yüksək mərhələyə qədəm qoyduğunun şahidi olduq. Buna misal olaraq, təkcə 2021-ci il iyunun 15-də Şuşa şəhərində hər iki ölkənin prezidentləri tərəfindən imzalanan Müttəfiqlik Bəyannaməsini misal göstərmək olar. Əlbəttə, təkcə iqtisadi yox, hərbi müttəfiqlik məsələlərini də özündə ehtiva edən bu bəyannamə qardaşlığımızın yeni mərhələsidir.

Ölkələrimizin liderləri qarşılıqlı səfərlər zamanı xalqlarımız tərəfindən hər zaman xüsusi sevinclə qarşılanır. Bu isə münasibətlərin təkcə dövlətlər yox, həm də xalqlar arasında çox yüksək səviyyədə olduğundan xəbər verir. Biz Azərbaycan və Türkiyədə keçirilən kütləvi sorğular zamanı “qardaş ölkədə savaş olsa, iştirak edərsinizmi?” – sualına verilən cavablarda “bir millət, iki dövlət” kəlamının boş yerə deyilmədiyinin bir daha şahidi oluruq.

Azərbaycan–Türkiyə münasibətlərinin bu səviyyədə olması, həm də Türk dünyasının canlanması deməkdir. Belə ki, bu birlikdən ilham alan digər türk dövlətləri qardaşlıq blokunda yenidən möhkəmlənmək, münasibətləri gücləndirmək istəyirlər. Hələ 2013-cü ildə Prezident İlham Əliyevin qətiyyətlə dediyi bir ifadəni xatırlayırıq: “XXI əsr Türk dünyası əsri olacaq”. Əslində, o vaxt bir çoxları üçün xəyali görünən həmin ifadə davam edən proseslərin fonunda özünü təsdiqləyir, dövlət başçımızın hadisələri və gələcək siyasi vəziyyəti nə qədər mükəmməl təhlil etdiyini göstərir.

Qeyd etdiyimiz kimi, Türkiyə və Azərbaycan münasibətləri təkcə iki ölkə arasında olan bütün əlaqələrə, ticari-iqtisadi, hərbi dövriyyəyə deyil, ümumilikdə, qədim türk birliyinin canlanmasına qığılcım olur.Yazını Prezident İlham Əliyevin sərlövhəyə çıxardığımız ifadəsi ilə bitirməyi məqsədəuyğun hesab edirik: “Biz dünyada bir-birinə ən yaxın olan iki ölkəyik”.

***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***